UOT 913.1

# MƏDƏNİ İRSİMİZ VƏ MUZEY QURUCULUĞU

**F.H.HƏVİLOVA**
***Bakı Dövlət Universiteti***
***faxriyya_havilova @ mail. ru***

*Məqalə Azərbaycanın mədəni irsi və muzey quruculuğuna həsr olunmuşdur. Mədəni irsin qorunması muzey quruculuğu ilə birbaşa əlaqəlidir. Bununla əlaqədar verilmiş bir sıra dövlət qanunları məqalədə öz əksini tapmışdır. Həmçinin məqalədə Azərbaycanda muzeylərin yaradılması və mədəni irsin qorunması ilə bağlı Heydər Əliyevin rolu işıqlandırılmışdır.*

**Açar sözlər:** irs, quruculuq, muzey, mədəniyyət, cəmiyyət

***Öz mədəni irsini qoruyub saxlaya bilməyən xalq nəyə qadir olduğunu heç vaxt sübut edə bilməz***
***Heydər Əliyev***

Azərbaycanda milli-mədəni irsimizin mühafizəsi məhz muzey quruculuğu tarixi ilə birbaşa əlaqəlidir. Müasir dövrümüzdə mənəvi zənginləşməmizin ən qiymətli xəzinəsi hesab oluna biləcək muzeylər ilkin olaraq, xalqımızın görkəmli ziyalılarının maarifpərvər fəaliyyəti nəticəsində yaradılmışdır. Belə ki, XIX əsrin sonunda böyük Azərbaycan yazıçısı C.Məmmədquluzadə tərəfindən Naxçıvanın Nehrəm kənd məktəbində ilk tarix-diyarşünaslıq muzeyi təşkil edilmiş və xalq məktəbləri müdiriyyəti tərəfindən o, bu sahədəki fəaliyyətinə görə təşəkkür almışdır [15, 104]. Respublikamızda muzeylərin yaradılması sahəsində əhəmiyyətli dəyişikliklər isə XX əsrin əvvəllərindən etibarən başlamışdır. Tarixi abidələrin və milli-mədəniyyətimizin sənədləşdirilərək qeydə alınması və mühafizəsi üçün konkret qaydaların tərtib olunması haqqında XX əsrin əvvəllərində «Azərbaycan» qəzeti yazırdı: «1918-ci ildə Bakı Arxeoloci Jəmiyyətinin təşkil olunduğuna baxmayaraq bu cəmiyyət tarixi abidələrin mühafizəsi üçün lazımi nəzarəti həyata keçirə bilmir. Avropa missionerləri və tacirləri Azərbaycanın şəhər və kəndlərini dolaşaraq, əhalidən yazıçı və şairlərin əlyazmalarını, çini qabları, qızıl əşyalarını, qədim geyim nümunələrini və digər əşyaları dəyər-dəyməzinə alırdılar» [7]. Odur ki, Londonun Viktoriya və Albert, Parisin Luvr, Vaşinqtonun

Metropoliten, Vyananın, Romanın, Berlinin, İstambulun, Tehranın, Qahirənin zəngin muzey kolleksiyalarına baxarkən orada Təbriz, Naxçıvan, Gəncə, Qazax, Quba, Bakı, Şamaxı və Qarabağ ustalarının bacarıqlı əlləri ilə yaradılmış sənət nümunələrini görürük [6, 3-5].

Azərbaycanın bir çox qabaqcıl ziyalıları milli-mədəni sərvətlərin dağıdılaraq talan edilməsinin qarşısını almağa çalışır, onların qorunması və bərpası üçün müəyyən tədbirlər görməyə cəhd edirdilər. Qeyd etmək lazımdır ki, bu cəhdlər təkcə milli-mədəni sərvətlərin qorunması istəyindən yox, həm də onlardan milli şüurun inkişafına təkan verən bir amil kimi istifadə etmək istəyindən də irəli gəlirdi. «Yaşıl qələm» ədəbi cəmiyyətinin üzvləri Hüseyn bəy Mirzə Camalov və Məhəmməd Ağayev Bakıda milli muzeyin yaradılması təşəbbüsü ilə çıxış etmişdilər. 1919-cu ilin iyul ayında onlar Azərbaycan Parlamentinin sədrinə belə bir xahişlə müraciət etmişdilər [10,17]. Bu dövrdə Bakıda Xalq Məktəbləri müdriyyətinin nəzdində tədris məqsədilə Pedaqoci muzey, Ümumrusiya Texniki cəmiyyətinin Bakı şöbəsinin nəzdində 13 bölmədən ibarət qapalı muzey təşkil edilmişdir [11, 10].

ADR dövründə yaradılmış «İstiqlal muzeyi» isə ölkəmizdə yaradılmış ilk rəsmi dövlət muzeyi olmuşdur. «Azərbaycan» qəzeti bu barədə yazırdı: «Bu şəxslər bir çox illərdən bəri milli muzey təşkil etməyi əsas məqsəd kimi qarşılarına qoymuşdular. Lakin müharibə ilə əlaqədar olaraq bu iş ləngimişdi. Onlar muzeyin yaradılması üçün çoxlu qiymətli əşyalar toplamışdılar. Əvvəlcə onlar muzeyi sadəcə olaraq, «Milli muzey» adlandırmaq istəyirdilər, lakin «İstiqlal» şüarının günün əsas şüarı olduğunu nəzərə alaraq, ona «İstiqlal» adı verməyi qərara aldılar. Muzeyin təsisçiləri onun Parlament binasında yerləşdirilməsini xahiş edir və bir otaq ayrılması haqqında arzularını bildirirdilər» [12,116]. Azərbaycan parlamentinin yaradılması ildönümü münasibətilə onun binasında açılmış və Parlamentin nəzdində fəaliyyət göstərmiş «İstiqlal» muzeyi fəaliyyətini tənzimləyən ilk hüquqi sənədlə işə başlamışdır. Qeyd etmək lazımdır ki, əsasnaməni əvəz edə biləcək bir səviyyədə tərtib olunmuş «Muzey İstiqlal» adına müəssisələr tərəfindən toplanmış olan şeylərin I Parlaman Divani-Rəyasətinə təhvil verilməsi haqqında Şərait»də əsas diqqət 3-jü bəndə verilmişdir. Xüsusi olaraq vurğulanan məsələlər muzeyə verilən hər bir əşyanın milli sərvət olması, gələcəkdə əşya sahiblərinin ailə üzvlərinin onları tələb etməyə ixtiyarı olmaması, «İstiqlal» milli bir müəssisə olduğu üçün muzeydə mövcud olan bütün əşyaların milli mal hesab olunması idi. Milli-siyasi şüurun, vətənpərvərlik ideyalarının genişləndiyi bir dövrdə tərtib olunmuş sənəddə milli irsin qorunması, mədəni-tarixi sərvətlərimizin toplanmasına yönəlmiş təqdirəlayiq addımlar gələcəkdə, Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından sonrakı dövrdə bu sahədə müvafiq işlərin görülməsi yönümündə xüsusi rol oynamışdı.

Azərbaycanda muzey quruculuğu sahəsində mədəni irsin qorunması və təbliği işində ilk vaxtlar əsas xidmətlər muzeylərimizin payına düşmüşdür.

Sovet Azərbaycanında muzeylərin təşkilində əsas təkanverici hadisə 1920-ci il mayın 17-də Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun imzaladığı bütün muzeylər, teatr, kinoların milliləşdirilməsi barədə qərarı oldu [8; 1, f. 57, 47. ].

Qədim tariximizin, milli-mədəni sərvətlərin öyrənilməsi və qorunması yönümlü ilkin tədbirlər məhz bu illərə şamil edilə bilər. 1920-ci ilin iyun ayında Y.N.Staneviçin başçılığı altında bir qrup Bakı müəllim və ziyalılarının təşəbbüsü ilə muzeylərin təşkili, ekskursiyaların aparılması üçün diyarşünas-pedoqoci dərnək təşkil edilmişdir [16, 8]. Azərbaycanda ilk kütləvi muzeyin təşkili Azərbaycan İnqilab Komitəsinin qərarı ilə XMK-nın nəzdində 1920-ci il 15 iyun tarixdən muzey-ekskursiya bölməsinin – Muzekskursun təsis edilməsi hesab oluna bilər [18]. Bölmənin ilk yığıncağında tədris xarakterli muzeyin yaradılması və əsas diqqətin doğma diyarın tədqiqinə yönəldilməsi qərara alınmışdır. Həmin ilin 1 iyulundan Muzekskurs bütün müəssisələri ilə birlikdə H.Z.Tağıyevin evində onlar üçün ayrılmış 5 otağa köçürülmüşdü. Qeyd edək ki, muzeyə əvvəlcə «Doğma diyarın tədrisi muzeyi», sonra isə «Doğma diyarın tədrisi muzeyi – İstiqlal» adı verilmişdi. İlk vaxtlar muzekskursda aydın strukturlu iş prosesi müəyyən edilmədiyindən, burada həm arxiv materialları toplanır, həm arxeoloji tapıntılar qruplaşdırılırdı. Bununla belə, muzekskurs 20-ci illərdə xalqımızın tarixini, mədəniyyətini öyrənmək kimi mühüm bir vəzifəni qarşısına məqsəd qoyduğundan, movcud boşluğu imkan daxilində doldurmağa çalışırdı. Fəaliyyətinin ilk vaxtlarından muzekskurs kortəbii olaraq, sistemsiz şəkildə eksponatların yığımı ilə məşğul olsa da, onun ayrı-ayrı qurumlara müraciəti və ya əməkdaşlarının müxtəlif əyalətlərə ezam olunması nəticəsində əldə etdikləri materialları ilə tariximiz üçün əhəmiyyətli rol oynamışdır. Hərbi Donanma Komissarlığı və Qızıl Ordu Komandanlığı ilə aparılmış danışıqlar nəticəsində bir sıra sənədlər, neft sahibkarlarının evindən müsadirə edilmiş bədii-tarixi əşyalar muzeyə təhvil verilmişdir. Bütün bu toplantılar və zəngin fond artıq muzekskursun öz ilkin adını, vəzifəsini aşaraq, daha geniş, keyfiyyətcə daha üstün quruma çevrilməsindən xəbər verirdi. Odur ki, 1927-ci ilin 25 oktyabrında qəbul olunmuş qərara əsasən, muzeyə – Azərbaycan SSRİ Dövlət Muzeyi adı verilməsi təsdiq olundu. Onun ardınca «Qədim abidələri qoruyan komissiya»nın arxiv şöbəsi - Dövlət Arxivi, Muzekskurs isə - Muzarxiv adlandırıldı [12, 115-119]. Maraqlıdır ki, Azərbaycanda muzey işlərinə rəhbərlik etmək, muzeylərin yenidən qurulması, arxeoloıi, incəsənət abidələrinin qeydə alınması, qorunması, abidələrdən təlim-tərbiyə prosesində istifadə edilməsi və s. kimi vəzifələr yenə də muzekskursa həvalə olunmuşdu. Azərbaycanda qısa müddət ərzində muzey quruculuğu işində xüsusi inkişaf nəzərə çarpmağa başlamışdır. Belə ki, əyalətlərdə də tarix-diyarşünaslıq muzeyləri təşkil olunurdu. İlk tarix-diyarşünaslıq muzeyi 1921-ci ildə Gəncədə yaradıldı [11, 350]. Muzeylərin sistemli olaraq açılması işində 1923-cü ildə yaradılmış «Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyə-

ti»nin rolu böyük olmuşdur. İ.Əfəndiyev, B.Bağırov, N.Tağıyev, M.Xələfzadə, digər alim və ziyalılar rayon və şəhərlərdə cəmyyətin bölmələrində bu prosesin inkişafına xüsusi diqqət verirdilər. Məhz cəmiyyətin təşəbbüskarlığı ilə 1924-cü il sentyabrın 21-24-də Bakıda Ümumazərbaycan diyarşünaslarının I qurultayı keçirildi. Azərbaycan Dövlət Muzeyinin direktoru D.Şərifovun «Azərbaycan SSR-də muzey işi haqqında» məruzəsində muzey kadrlarının yetişdirilməsi və fondların yaradılması əsas diqqət mərkəzinə gətirilmişdi. Qurultaydan sonra, 1924-cü il iyunun 7-də Azərbaycan KP MK Bakı, Şamaxı, Gəncə və başqa ərazilərdə abidələrin qorunması barədə qərarlar verdi və oktyabrın 30-da Naxçıvanda tarix-diyarşünaslıq muzeyi təşkil edildi. Onun ardınca 1924-cü ildə Lənkəranda, 1926-cı ilin iyulunda Şəkidə, 1928-ci ildə Xanlarda, 1943-1944-cü illərdə Quba və Şamaxıda tarix-diyarşünaslıq muzeyləri təşkil olundu [3]. Qeyd edək ki, Azərbaycanda muzeylərin belə ardıcıl, sistemli şəkildə açılması birbaşa sovet Rusiyasının ideoloci siyasətinin bir hissəsi hesab olunmalıdır. Məlumdur ki, istənilən güjlü imperiya öz nəzarətində olan ölkələrin iqtisadi ehtiyatlarını öyrənməklə, onun bütün sərvətlərinə sahib çıxmaq siyasəti yeridir. Eyni zamanda bu məqsədə tam nail olmaq üçün yerli xalqın milli-mədəni inkişafını Rusiya öz mədəniyyətinin içərisinə qatmaqla, ruslaşdırma prinsipini həyata keçirsə də, bu tədbirlər müəyyən dərəcədə Azərbaycanda muzeyşünaslığın inkişafına təsir göstərirdi.

Azərbaycanda fəaliyyət göstərən diyarşünaslıq muzeylərində yeni ekspozisiyaların təşkili, onlarda zəngin fondların təkmilləşdirilməsi sahəsində irəliləyişlər isə 1928-ci ilin 20 avqustunda SSRİ İcraiyyə Komitəsinin sədri M.İ.Kalininin imzası ilə «Muzey quruculuğu» adlı xüsusi qərarda «Əyalətlərdə yaranmaqda olan muzey işinin təşkilinin nöqsansız həyata keçirilməsi» vacib məsələ kimi qeyd olunurdu. Bu qərardan sonra, Moskva və Peterburq muzeylərindən Azərbaycan Dövlət Muzeyinə tariximizə dair materiallar, eksponatlar gətirilir. Doğrudur, hələ 1925-ci ildən Respublikamızdan kənara aparılmış materialların qaytarılması yönümündə cəhdlərə başlanılmışdı. Rusiya muzeylərində invertar kitablarında, kataloqlarda dəyərli əşyalar İran mədəniyyəti nümunələri kimi təqdim edilirdi [6;7]. Dövlət Muzeyinin məlumatlarına görə, Moskva və Leninqrad muzeylərində 2000-dən çox belə əşyalar saxlanılırdı [1, f.57, siy.1, iş 655, 362]. Yaranmış bütün bu vəziyyəti nəzərə alaraq, Azərbaycanın Milli Muzeyi Azərbaycan XMK-nə müraciət edir ki, Azərbaycan xalqına məxsus və SSRİ-nin bölgələrinə aparılmış qiymətli muzey əşyalarının qaytarılmasına köməklik etsin. Öz növbəsində 1928-ci ilin 10 martında XMK Azərbaycan MİK-ə muraciət edir. 1929-cu ilin 10 aprel tarixində RSFSR XMK xahişin nəzərə alındığını və Moskva Dövlət Tarix Muzeyi tərəfindən müvafiq kolleksiyaların seçildiyi bildirildi. Onların gətirilməsi üçün Azərbaycan Dövlət Muzeyindən Tiflis, Moskva və Peterburqa direktor, baş elmi idarəsinin rəisi prof. A.Mişel ezam olunmuşdu [1, f.57, siy.1, iş 655, 51]. Doğrudan da qısa müddət ərzində Azərbaycan Dövlət muzeyinə xeyli material daxil olmuş, XIV, XVIII əsrlərə aid 140 ədəd sikkələr

muzey komissiyası (Y.Poxomov və T.Vəkilov) tərəfindən yoxlanıldıqdın sonra numizmatika kolleksiyasına daxil edilmişdir [1, f.57, siy.1,iş 655, 46]. Belə ki, 1929-cu ilin iyun ayında Moskvadan Dövlət Muzeyinə 132 nümunədən ibarət Şərq mədəniyyətinə aid kolleksiya ayrıldığı bildirilmiş, muzeyin elmi əməkdaşı V.Orbelinskinin səyləri nəticəsində 163 ədəd əşya gətirilmişdi [17].

30-cu illərin sonlarından başlayaraq, muzey əməkdaşlarının bölgələrə etnoqrafik-arxeoloıi ekspedisiyaları yenilənirdi. N.Gəncəvinin 800 illik yubileyi ilə əlaqədar 1941-ci ildə muzey əməkdaşları V.Leviatov, A.Nuriyev, V.Qraçov, Q.İone, Tarix institutundan İ.Cəfərzadə, Y.H.Nummel, İ.Şeblıkin bölgədə qazıntılar aparmışdılar. Belə qazıntılar muzey fondunun eksponatlarının zənginləşdirilməsinə imkan verir və bu toplama işinin nəticəsində bütün eksponatların sayı 6 mini keçirdi. Odur ki, 1930-cu ildə Azərbaycan Dövlət Muzeyinin 10 illiyi qeyd olunarkən muzeyə əlavə otaqlar ayrılmış və ərazisi genişləndirilmişdi.

1936-cı ildən Azərbaycan Dövlət Muzeyi Azərbaycan Tarixi Muzeyi adlandırıldı. Əslində ilk baxışda formal ad dəyişkənliyi və ya «Tarix» sözünün daha təntənəli səslənməsi kimi nəzərə çarpan bu tədbir Azərbaycanda dövlət və ya dövlətçilik ənənəsinin və «müstəqil dövlət» anlamında milli şüura təsir edə bilərək hər hansı məhfumun yaddaşlardan tədricən silinməsinə xidmət edirdi. 30-cu illərdə Muzeyin tərkibindən ayrı-ayrı qeyri-ixtisas muzeylər ayrılmış, 1939-cu ildə isə əlyazmalar şöbəsinin də ayrılması ilə demək olar ki, Tarix Muzeyinin tam ixtisaslaşması başa çatmışdı. Azərbaycan Xalqlarının Tarixi Muzeyi 1941-ci ildən Azərbaycan Tarix Muzeyi adına uyğunlaşdırılmışdı. 1941-ci ildən Böyük Vətən Müharibəsinin başlanması muzey quruculuğunda durğunluğa səbəb oldu. Fəaliyyətdə olan bir çox diyarşünaslıq muzeyləri bağlandı. 1941-1942-ci illərdə muzey əməkdaşları Tarix İnstitutunun Muzey şöbəsində öz fəaliyyətini davam etdirərək, hərbi-vətənpərvərlik mövzusunda sərgilər təşkil edirdilər. 1947-ci ildə isə muzeylərin işinə nəzarət məqsədilə «Muzey fondlarının uçotu üzrə təlimat» qəbul edildi. Durğunluqdan tədricən çıxmaq üçün 1950-ci ildə «Mədəni-maarif» müəssisələrinin inkişafına dair qərar verildi. Müharibə illərində fəaliyyəti dondurulmuş diyarşünaslıq muzeyləri yenidən bərpa olundu. 1953-jü ildə Tarix Muzeyinə əvvəlki binasının bir hissəsinin yəni, H.Z.Tağıyevin mülkünün II mərtəbəsinin verilməsi ilə artıq muzey elmi ekspozisiyasını qura bildi və öz fəaliyyətini 1956-cı ildən gerçəkləşdirməyə başladı.

Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında YUNESKO-nun 16 noyabr 1972-ci il konvensiyasına əsasən memarlıq, monumental heykəltəraşlıq və boyakarlıq əsərləri, arxeoloıi xarakterli ünsürlər və ya strukturlar, kitabələr, mağara məskənləri və tarix, incəsənət, yaxud elm baxımından görkəmli universal dəyərə malik abidələr, ansambllar, görməli yerlər bütövlükdə «mədəni irs» anlamına daxil edilmişdir [13,60]. Ancaq bütün bunların rəsmi tərtibindən daha əvvəl Azərbaycanda bu yönümlü dəyərlərin qorunması və qiymətləndirilməsi müşahidə olunmuşdur [9, 44-46].

Mədəni irsin qorunması və mühafizəsinin təmini üçün Azərbaycanda ölkə qanunvericiliyində qəbul olunmuş qanunlar «Azərbaycan Respublikası konstitusiyası» (12 noyabr, 1995-ci il, maddə 77), «Mədəniyyət haqqında» qanun (18 aprel, 1998-ci il), «Muzeylər haqqında» qanun (24 mart 2000-ci il), «Tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında» qanun (10 aprel, 1998-ci il) və eyni zamanda beynəlxalq normativ hüququ aktlar, 1972-ci il YUNESKO-nun tərkibindəki Ümumdünya mədəni və təbii irs komitəsinin təşəbbüsü ilə «Bəşəriyyətin mədəni və təbii irsin qorunması haqqında Konvensiya» (1972) və «Tarixi ansamblların qorunması haqqında» tövsiyələrin (1976) hazırlanması öz əhəmiyyətini göstərməkdədir. 2007-ci ildə Azərbaycandakı monumental heykəltaraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərəncam imzalamışdır. Sərəncamın verilməsində göstərilən abidələrin bədii-estetik görkəminin milli-mənəvi dəyərlərə uyğunlaşdırılması və mədəni irsimizin qorunması kimi mühüm məqsədlər əsas götürülmüşdür.

Mədəniyyətimizin, ədəbiyyatımızın, muzeylərimizin yaradıcısı və memarı kimi muzeylərin əhəmiyyətini yüksək qiymətləndirən ümummilli liderimiz möhtərəm Heydər Əliyev «Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır» - deyərkən bu yönümlü işlərin genişləndirilməsinə dövlət qayğısını göstərməyə çalışmışdır. Odur ki, bu məqsədlə 1969-cu ildə Azərbaycan Respublikası Nazirlər Soveti muzey işinin inkişaf etdirilməsi məqsədi ilə Xüsusi Komissiya təşkil etdi. 1970-ci ilin 30 yanvarında «Respublikada muzey işinin inkişafı haqqında» qərarda muzey işində mövcud olan nöqsanların aradan qaldırılması və ijtimai əsaslarla işləyən muzeylərin maddi-texniki bazasının yaxşılaşdırılması əsas vəzifə kimi qarşıya qoyulmuşdur [2, f.501, siy 8, iş 115, 26]. Qərara uyğun olaraq Respublikamızın bir sıra rayonlarında ardıcıl olaraq, tarix-diyarşünaslıq muzeyləri təşkil edildi. 1980-cı il yanvarın 4-də Respublikamızda muzey işinə aid qərardan sonra muzey quruculuğu yeni inkişaf yoluna qədəm qoydu. Artıq bu dövrdən etibarən muzeylərə rəhbərlik işini təkmilləşdirmək, metodiki və praktiki köməyin səmərəsini artırmaq, ekspozisiyanın estetik səviyyəsini yüksəltmək və muzey sərvətlərinin uzun ömürlüyünü təmin etmək üçün Respublika Mədəniyyət Nazirliyində Muzeylər İdarəsi, muzey işi üzrə Respublika Elmi-Metodiki Mərkəzi, Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi yaradılmışdır. 1993-cü ilin dekabr ayında respublikada Nazirlər Kabinetində muzey işçilərinin Respublika müşavirəsi keçirilmişdir. Müşavirədə Nazirlər Kabinetinin, müvafiq nazirlik və komitələrin, ijra hakimiyyətlərinin, mədəniyyət orqanlarının və digər təşkilatların məsul əməkdaşları iştirak edirdilər. Müşavirədə son vaxtlar muzey quruculuğunda əldə edilmiş uğurlar, bu sahədə qalmaqda olan problemlər və qarşıda duran vəzifələr ətrafında geniş fikir mübadiləsi aparılmış, tövsiyələr və konkret təkliflər verilmişdir.

1982-ci ildə Respublikamızda ilk dəfə olaraq bir qrup muzey işçisinə «Əməkdar mədəniyyət işçisi» fəxri adı verildi. Muzey işçiləri arasında ilk dəfə bu ada C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru Turan Cavid, N.Nərimanovun Xatirə Muzeyinin direktoru Loğman Hacıyev, Naxçıvan MR Dövlət Tarix Muzeyinin direktoru İsfəndiyar Əsədullayev, Lənkəran tarix-diyarşünaslıq muzeyinin direktoru Hüriyyət Ağayeva layiq görüldülər. Demək olar ki, bu dövrdə muzeylərin yaradılması prosesi başa çatmış, artıq təkmilləşmə, ekspozisiyaların əsaslı surətdə təzələnməsi işləri aparılırdı. Bir daha Azərbaycanda muzey şəbəkəsinin genişlənməsində ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayaraq qeyd etmək kifayətdir ki, respublikada 1945-ci ildə 22, 1969-cu ildə isə 29 muzey olduğu halda, başqa sözlə, 24 ildə yalnız 7 yeni muzey təşkil edildiyi halda, 1969-cu ildən 1999-cu ilədək olan dövrdə muzeylərin sayı 133-ə çatmış, yəni 100-dən artıq yeni muzey yaradılmışdır.

Muzeylərimizin həyatında (son onilliklərdə) baş vermiş əlamətdar bir hadisə xüsusilə qeyd edilməlidir. Bu, Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsinin təsis edilməsidir. 1992-ci ilin iyul ayında Milli Komitə Beynəlxalq Muzeylər Şurasının (İCOM) üzvlüyünə qəbul edilmişdir. Dünya muzeylərini və muzey işçilərini birləşdirən bu təşkilat YUNESKO ilə sıx əməkdaşlıq edir. Komitə YUNESKO-nun muzeylər proqramının həyata keçirilməsinə köməklik göstərir. Həmçinin YUNESKO-İCOM Muzey İnformasiya mərkəzi də fəaliyyət göstərir [5,4 3]. YUNESKO Beynəlxalq Muzeylər Şurasının qərarı ilə 1978-ci ildən etibarən hər il may ayının 18-də Beynəlxalq Muzeylər günü dünya miqyasında qeyd olunur [14, 3].

Azərbaycan hökuməti 1994-cü ildə muzey işçilərinin müşavirəsinin tövsiyələrini nəzərə almaqla «Respublikada muzey işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul etdi. Bu qərar yeni mərhələdə Azərbaycanda muzey işinin inkişafı üçün yeni imkanlar yaratmış oldu. Həmin qərarda muzey binalarının təmiri, muzey əhəmiyyətli əşyaların əhalidən satın alınması, onların qeydiyyata alınması və mühafizəsinin təmin edilməsi, burada elmi-tədqiqat işlərinin aparılması, xarici ölkələrin mədəni qurumları ilə əlaqələrin təşkili, muzey və sərgilərin müasir tipli mühafizə sistemi ilə təchiz olunması məqsədilə lazımi vəsaitin ayrılması Respublika Maliyyə Nazirliyinə tapşırıldı. Həmçinin Azərbaycanın bütün rayonlarında fəaliyyət göstərən muzeylərin ekspozisiyalarının yenidən qurulması və müasir tələblər baxımından təkmilləşdirilməsi üçün vəsaitin ayrılması rayon və şəhər icra hakimiyyəti başçılarına həvalə olundu. Mədəniyyət Nazirliyinin ekspert komissiyasının yazılı icazəsi olmadan tarixi və bədii dəyərli əşyaların Respublikadan kənara çıxarılması qəti qadağan edildi. Muzeylərə avadanlıq, bədii tərtibat materialları, bərpa işlərində istifadə olunan dəzgah, alətlər və kimyəvi reaktivlərin alınması, muzeyşünaslığa aid dərslik və s. nəşri müvafiq orqanlara tapşırıldı.

2000-ci il martın 24-də Respublikamızda ilk dəfə olaraq, Milli Məclis

tərəfindən «Muzeylər haqqında» Azərbaycan respublikası qanunu qəbul edildi [4, 160]. Bu qanun ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilatı, hüquqi-iqtisadi əsaslarını müəyyən edir və bununla bağlı münasibətləri tənzimləyir. Azərbaycan Respublikasının Prezidentinin 24 mart 2000-ci il tarixli qanunu ölkəmizdə muzey şəbəkəsinin genişlənməsində xüsusi rol oynamışdır. Qeyd etmək lazımdır ki, bu qanunla muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri qəti olaraq müəyyənləşdirilmişdir ki, bu da muzeylərin bilavasitə dövlət nəzarətində olduğunu təsdiq edir. Qanuna görə muzey əşyalarının hamı üçün açıq olması şərti ilə dövlət muzeylər qarşısında müəyyən vəzifələri üzərinə götürmüşdür: maliyyələşdirmə, yenidən təşkil olunma, mühafizəsinin təşkili, ixtisaslı kadrların hazırlanması və s. [4, 162].

Azərbaycan xalqı özünün çoxəsrlik tarixində zəngin mədəni irs yaratmışdır. Bu irs həyatımızın bir çox sahələrində əks olunmaqla, daim inkişafını davam etdirməkdədir. Təəssüflə qeyd olunmalıdır ki, erməni işğalçılarının zəbt etdikləri ərazilərdə törətdikləri dağıntılar, məqsədyönlü şəkildə tarixi və mədəni abidələrin məhv edilməsi, 1954-cü il Haaqa konvensiyasının hərbi münaqişələr zamanı «Mədəni dəyərlərin qorunması haqqında» konvensiyasına, «1992-ci il Avropa konvensiyası»na, «Arxeoloji irsin qorunması» barədə konvensiyaya, 1972-ci ilin «YUNESKO» konvensiyasına, «Ümumdünya mədəni və təbii irsinin qorunması» konvensiyasına ziddir.

## ƏDƏBİYYAT


1. ARDA f.57, siy. 1, iş 655, s. 46, 47, 51, 362
2. ARDA f. 501, siy. 8, iş 115, 26
3. AMEA Mərkəzi Arxivi f. 15, siy. 1, iş 11, v.73, s. 18-20
   f. 5, siy. 1, iş 234, 69
4. Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin fərmanları və Azərbaycan SSR hökumətinin qərarlarının xronoloji külliyyatı (1936-1945) 3 clddə, II c. Bakı: Azərbaycan, 1961, 393 s.
5. Bəkirova Xalidə. Mədəni irsin təbliğində Beynəlxalq Muzeylər Şurası (İCOM) / Azərbaycan Milli Komitəsinin rolu. «Muzeylər və Mədəni irs» Milli Azərbaycan Tarix Muzeyinin 90 illiyinə həsr olunmuş beynəlxalq konfransının materialları, Bakı, Ziya, 2010, s. 272.
6. Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində. Bakı: İşıq, 1980, 165 s.
7. Əfəndiyev R. Azəri sənət nümunələri Avropa muzeylərində // Qobustan jurnalı, 1969, № 1, s. 24-29
8. Əhmədov T. Nəriman Nərimanov. Bakı: Yazıçı, 1982, 299 s.
9. Əsgərova A. Milli-mədəni irsimizin dünəni və bu günü // Mədəni- maarif jurnalı, Bakı: 2004, №7, s. 44-46
10. Kərimov B.B. Azərbaycanda tarix-diyarşünaslıq muzeyinin təşəkkülü və inkişafı tarixi. Bakı: Ziya-Nurlan, 182 s.
11. Kərimov B.B. Azərbaycanda tarix diyarşünaslıq muzeylərinin yaranması tarixindən / Azərbaycan Tarixi Muzeyi. Bakı: Elm, 2001, 350 s.
12. Kərimov B.B. Azərbaycanda ilk rəsmi dövlət muzeyi // Azərbaycan arxeologiyası jurnalı, № 1-2, Bakı: 2002, s. 115-119

13. Mədəni irsin qorunmasına dair normativ hüquq; aktlar toplusu. Bakı: Elm, 2001, 280 s.
14. Гарник В.Я. О показе современности в мемориальном музее. Баку: Азернешр, 1983, 5 с
15. Нифталиев М.Б. Культурное строительство в Нахичеванской АР (1921-1925гг.), Баку: Азернешр, 1957, 122 с.
16. Пахомов Е.А. Монетная коллекция Азгосмузея. Т I, Баку: Азгосмузей, 1928, 48 с.
17. Пряхин А.Д. История советской археологии, Воронеж: Воронежский Университет, 1986, 288 с.
18. Собрание указов и распоряжений рабоче-крестьянского правительства Аз.ССР, Баку: 1920, 150 с.

## КУЛЬТУРНОЕ НАСЛЕДИЕ И МУЗЕЙНОЕ СТРОИТЕЛЬСТВО

**Ф.Г.ГАВИЛОВА**

**РЕЗЮМЕ**

Статья посвящена культурному наследию и музейному строительству нашей республики. Охрана культурно-национального наследия связана с историей музейного строительства. Этому способствовали некоторые государственные законы, связанные с изучением и охраной памятников Азербайджана. К сожалению, древнейшие исторические и культурные памятники Карабаха сегодня находятся под оккупацией и многочисленные памятники разрушены. Наш народ с каждым днем обогащает свое культурное наследие, чтобы передать их будущим поколениям.

**Ключевые слова:** наследия, строительство, музей, культура, общество

## OUR CULTURAL HERİTAGE AND MUSEUM CONSTRUCTİON

**F.H.HAVİLOVA**

**SUMMARY**

The article is devoted to the cultural heritage and museum construction of our Republic. The protection of cultural national heritage is connected with the history of museum construction. This was promoted by some state laws dealing with the study and protection of monuments of Azerbaijan. Unfortunately, the most ancient historical and cultural monuments of Garabakh are under occupation today and numerous monuments are destroyed. Our people constantly enrich their cultural heritage in order to pass it to future generations.

**Key words:** heritage, construction, museum, cultural, society